# Qızılbaş, yaxud Xorasan?

## Hekşer kolleksiyasından sirli xalça

*Peter Poullada.*
*HALI. №156. 2008*

San Fransiskonun De Yang Muzeyində (San Francisco's de Young Museum) "Çadır və ticarət üçün: türkmən toxuculuğunun şah əsərləri" sərgisində "Corc & Meri Hekşer" kolleksiyasından bənzərsiz, çoxgöllü xalçada rast gəlinən struktur və qeyri-adi naxış (dizayn) kombinasiyası müəllifi onun mənbəyini XVIII-XIX əsrlərdə şimali Xorasanda və ətrafında mürəkkəb qəbilə xəritəsində axtarmağa vadar etmişdir.





**1.** Qızılbaş (?). Çoxgöllü türkmən xalçası. Şimali Xorasanda toxunduğu güman edilir. XVIII əsr. 1.65 x 2,24m (5'5" x 7'4"). Əriş: şəkəri rəngli yun, Z2S, bir səviyyədə; arğac: ağ pambıq, Z2S, 2 sıra; xov: yun, əsasən Z3, ASL, 37 Şaquli x 45 üfüqi = təxminən. 1,665 ilmə/dm² (107/düym²). San-Fransisko İncəsənət Muzeyi, "Corc & Meri Hekşer" Kolleksiyası, inventar № 2000.186.16



**2.** Ballard. Çoxgöllü türkmən xalçası. XVIII əsr. 1.40 x 2.39m (4'7" x 7'10"). Əriş: şəkəri rəngli yun, Z2S, bir qədər depressiv; arğac: şəkəri və açıq-qəhvəyi rəngli yun, Z2S, 2-4 sıra; xov: yun, Z2S, SY 30Ş x 49Ü = təxminən 1,470 ilmə/dm$^2$ (95/düym$^2$). Metropoliten İncəsənət Muzeyi, Nyu-York, Ceyms F. Ballardın hədiyyəsi, inventar № 22.100.44

Keçmişdə " Hekşer" xalçalarının qeyri-adi xüsusiyyətləri ekspertlərin diqqətini cəlb etmiş və onları hazırda bizim qəbul etdiyimiz türkmən qəbilə dizaynlarından birinə aid etmək uğrunda mubarizə aparmışlar. Sonrakı araşdırmalardan belə bir qənaət əldə etdim ki, onun mənbəyi Mərkəzi Asiya türkmənləri deyil, XVI-XIX əsrlərdə Şimali Xorasanın siyasi və etno tarixinə mühüm təsiri olmuş Səfəvi inzibati sisteminin yaratdığı qonşu qəbilələrdən biri ola bilər.

Məni ilk dəfə " Hekşer" xalçasının mənsubluğuna alternativ axtarmağa vadar edən ilk vizual tanışlıqda xalçaya toxunmağım oldu. Dayen Mot, Cim Blakmon və mən San Fransisko sərgisindən öncə bu xalçanın daha dərindən tədqiqinə başlayanda, hamımızın reaksiyası eyni oldu: "bəlkə bu,türkmən deyil!" Daha sonra tarixi tədqiqatlar məni inandırdı ki, Mərkəzi Asiya və Xorasanın qəbilə kompozisiyası adətən düşünüləndən daha mürəkkəbdir. Çoxgöllü " Hekşer" əsas xalçası bu mürəkkəb qəbilə mozaikasının tarixi kontekstini tədqiq etmək üçün çox gözəl imkan yaradır. Bizdən əvvəl də bu xalçanın (**şəkil 1**) "türkmən" olduğuna şübhə ilə yanaşanlar olub. Londonda "Sotheby's"-dən alınmadan öncə, ilk dəfə 1995-ci ildə[1] nəşr edilmiş, növbəti il isə Filadelfiya İCOC-da[2] (Şərq Xalçaları üzrə Beynəlxalq Konfrans) sərgilənmişdir və sonra "Eyland & Eyland" tərəfindən 1998-ci[3] ildə nəşr olunmuşdur. Murey Eyland xalçanın qeyri-adi xüsusiyyətlərini aşkar etmiş və onu "Yomut qrupu" adlanan toxunuş qrupuna aid etməyə tərəddüd etmişdir. Oxşar şəkildə, Robert Pinnerin London satışından[4] sonrakı şərhi və İCOC kataloquna verdiyi məlumat xalçanın mənşəyi barədə daha geniş müzakirələrə səbəb olmuşdur. O, bu xalçanı "Qartal-gül qrup çoxgöllü xalça" adlandırmaq istəmiş və onun XVIII əsrə aid olduğunu təsdiqləmişdir. Lakin bununla belə o qeyd etmişdir ki, xalçanın tərtibatı və struktur xüsusiyyətləri türkmən xalçalarının təsnifatının qəbul edilmiş xarakteristikası ilə heç də uyğunlaşmır.

Robert Pinnerin Filadelfiya İCOC-un kataloqunda yazdığı təfsilatı nümunə göstərməyə dəyər: "...onun bəzi struktur xüsusiyyətləri, xüsusilə də sol tərəfə açıq assimmetrik ilmə kombinasiyası, eyni səviyyəli ərişləri, üçqatlı yunu və eləcə də rənglənməsi I qrup "Qartal-göl" xalçaları ilə əlaqəyə işarədir. Digər tərəfdən, türkmən xalçalarında pambıq arğaca nadir hallarda rast gəlinir. Həm də başaçıq palmetto və üz-üzə oxşəkilli haşiyə də daxil olmaqla, sərbəst şəkildə "süzən" sahə ornamentlər isə adətən Azərbaycanın simmetrik ilməli xalçaları üçün səciyyəvidir". Pinner həm də qeyd edir ki, xalçanın "ornamentləri türkmən deyil, daha çox Qafqaz ornamentləridir. "Eyland və Pinnerin bu xalçanı ya "Yomut", ya da "Qartal-göl" qrupuna aid etməkdə tərəddüdləri və onların xalçanın hibrid toxunma ənənəsini təmsil etməsi barədə fikirləri, bizi həm Mərkəzi Asiya, həm də Qafqaz naxışlarından istifadə edən qəbilə qrupunun axtarışlarına vadar edir. Lakin etno-tarixi qeydlərə istinadən bu ideyanın ardınca getmədən öncə, Pinner tərəfindən təklif olunan bir neçə müqayisə olunmalı nümunələri tədqiq etmək yaxşı olardı.

İki əsas naxış elementi - əsas sahədə iki ornament və ana haşiyənin naxışı " Hekşer" xalçasını türkmən toxuculuğuna dair proqnozlarımızdan uzaqlaşdırır. Hibrid naxış ənənəsini nümayiş etdirən və



xüsusilə də "polimorfik" motivlər adlanan çoxlu sayda nəşr edilmiş nümunələr var.[5] Onlardan birincisi mövcud ən qədim Mərkəzi Asiya xovlu toxunuşları arasında olduğu güman edilən, Nyu-Yorkun Metropoliten İncəsənət Muzeyindəki məşhur Ballard Yomut xalçasıdır (**şəkil 2**). Ballard xalçası C-göllərə (C hərfinə bənzər göl), sonrakı "Yomut" qrup xalçaları ilə uyğun gələn əsas haşiyəyə və uzunsov əsas sahəyə malik olsa da, onun 23 ornamentinin pərakəndə düzülüşü, I və II dərəcəli motivləri arasında differensiasiyanın olmaması, nəbati elementlərin stilizə olunmuş, lakin həndəsi olmayan forması Mərkəzi Asiya xalçası üçün tamamilə tanış olmayan estetikadan xəbər verir. " Hekşer" xalçasında C-göllərin qarışmasından, palmettolardan, digər stilizə olunmuş nəbati elementlərdən başqa, kənar sütunlarda üç dəfə, orta sütunda iki dəfə eynilə təkrarlanan mərkəzi ikiqat yad motiv nəzərə çarpır.

Bu mürəkkəb ornament (**şəkil 3**) aydın işlənmiş, lakin stilizə olunmuş və sıralarda düzülmüş nəbati elementlər "polimorfik" cüt



**3.** "Polimorfik" cüt motivi. 1-ci şəkildəki xalçanın üzərindəki element.



**4.** Şurman türkmən çoxgöllü xalça, XIX əsr. 1.65 x 2.28m (5'5" x7'6"). Əriş:şəkəri rəngli yun, Z2S, bir səviyyədə; arğac: tünd qəhvəyi yun, Z2S, 2 sıra; xov: yun, Z3-Z4, ASL, 40Ş x 80Ü = təxm. 3,200 ilmə/dm$^2$ (205/düym$^2$). Şəxsi kolleksiya. "Rautenstenqel & Azadi"dən sonra, 1990, tablo.59

motivlə birlikdə " Hekşer" xalçasına qeyri-Mərkəzi Asiya görünüşü verir. Daha çox nümunələr ortaya çıxa bilər. Lakin hələ ki, ən yaxın müqayisə 1969-cu ildə[6] Ulrix Şurman tərəfindən işıqlandırılmış xalçadır (**şəkil 4**). Xalça 1979-cu ilin yanvarında Londonda Sotheby's-də satılıb, həmin il Münhendə Eberhart Herman tərəfindən sərgiyə çıxarılmış[7] və Rautenstenqel & Azadi-nin "Qartal-göl" toxunuşunun[8] 1990-cı il araşdırmasında reproduksiya edilmişdir. Rautenstengels onu xüsusi olaraq səciyyəvi üç "Qartal-göl" qrupundan heç birinə aid etməyib. Əvvəlki Ballard xalçasında olduğu kimi, Şurman xalçasında medalyonlar səliqəsiz şəkildə düzülüb; onların nizamı daha çox İranın çiçəkli, palmetto xalçaları ənənəsinə və ya onların Qafqaz xalçalarında stilizə olunmuş törəmələrinə bənzəyir. Hekşer, Ballard və Şurman xalçalarından əlavə, son dövrə məxsus, "polimorfik" cüt naxışlı ən azı altı türkmən xalçası var – üç əsas və üç nisbətən kiçikölçülü xalça[9]. Bir çox hallarda motiv tanış türkmən üslubunda "dır-



5. Yarpaq üzərində "Mehdi Xan" türkmən xalçası. Astarabad bölgəsində toxunduğu ehtimal edilir. Şimal-şərqi İran. XIX əsrin sonları. 2.00 x 3.00m (6'7" x 10'10"). Şəxsi kolleksiya, İtaliya. Şəkil "Textile-Art"a məxsusdur (London).

naq göl" ilə cütləşib (**şəkil 6**). "Mehdi Xan" xalçası (**şəkil 5**) adlanan, İtaliyada şəxsi kolleksiyasından olan bu böyük nümunə Türkmən Xalçalarının Radiokarbon Tarixləşdirmə Simpoziumunda Maykl Franses tərəfindən müzakirə edilmişdir (Liestal, İsveçrə, fevral, 1999-cu il).

Üzərində toxunmuş yazı onun şimal-şərqi İranın Xəzər dənizinə yaxın Astarabad bölgəsinə mənsub olduğunu göstərir. İvrit üsulu ilə fars dilində yazılmış bu kitabəyə həm də daha əvvələ aid tarix – eramızın 1660-cı ilinin ekvivalenti - yəhudi təqvimi ilə "5421" də daxildir. Bu təkrarlanmış C-14 (radiokarbon tarixləşdirmə) analinizə əsasən ən azı yetmiş il öncəyə gedib çıxır[10]. Görünür ki, XIX əsrin sonlarınadək və ondan əvvəl həm Mərkəzi Asiya, həm də Astarabad-Gürgan-Atrak Yurt-un Xorasan qəbilələri polimorfik cüt motivlərini özlərinin ənənəvi repertuarlarına daxil ediblər. Lakin onlardan "C-göl" və "Qartal-göl" motivləri kimi rahat istifadə edə bilməyiblər.

Hekşer xalçasında qeyri-türkmən mənsubluğuna işarə edə biləcək ikinci naxış elementi qarşılıqlı "ox" naxışı və onun əsas haşiyə naxışı kimi istifadə edilməsidir. Yəqin ki, Şah Abbas Səfəviyə istinadən Peter Stone[11] tərəfindən 'laleh-ye-Abbasi' adlanan bu naxış bəzi "Qartal göl" əsas xalçalarda yalnız kiçik haşiyələrdə müxtəlif formalarda ortaya çıxır. Lakin bu naxış XVIII və XIX əsr Qafqaz xalçalarında və cənubqərbi İran xalçalarında adətən əsas haşiyə naxışı kimi işlənib.

Həm Pinner, həm də Eyland tərəfindən vurğulanan məsələdə axırıncı amil xalçanın qeyri-adi strukturudur. Asimmetrik toxunsa da, sol tərəfə söykənən ilmələr, üç-qat yun toxunuşu "Qartal-göl" III[12] qrupunda mövcuddur; pambıq arğaclar və rənglənməmiş arişlərlə bu xüsusiyyətlərin eyni səviyyədə kombinasiyası " Hekşer" xalçasını digər türkmən xalçalarından fərqləndirir. Eyni zamanda, onun assimmetrik sol tərəfə söykənən toxunuşu və tünd qırmızı əsas sahəsi onun Qafqaza aid edilməsini çətinləşdirir. Pinner və Eyland ornamentlərin "Azərbaycan" və ya Qafqaza məxsus olduğuna istinad edirlər. Əlbəttə ki, " Hekşer" xalçasında Qarabağ və Şirvan toxumalarında rast gələnən motivlər arasında oxşarlıq var. Lakin ən çox nəşr edilən nümunələr XVIII-XIX əsrlərə aiddir. Və bizdə bu bölgələrin daha qədim xalçalarının illüstrasiyası yoxdur. Bununla belə, mən Qafqazın şimal-şərqində Şirvan/Quba bölgəsindən "Bicov" adlanan xalçalarda rast gələnən naxışlarla oxşarlığa xüsusilə heyran qaldım.

"Polimorfik cüt motivi" ilə müqayisə axtarışında mən hərdən bəzi Əfşar[13] xalçalarında "köpəyəbənzər" qəribə formalı elementlərə də diqqəti cəlb etmək istərdim. Naxış və strukturda uyğunluq axtaranda biz "Baluş" adlanan bəzi asimmetrik açıq-sol Xorasan xalçalarını unutmamalıyıq (böyük ehtimalla XIX əsrdə Çahar (Chahar) Aimaq qəbilə konfederasiyası üzvləri tərəfindən toxunub; Əfşar, Qacar, Bayat, Karai və Xorasan kürdləri kimi Səfəvilər və ya onların varis dövlətləri tərəfindən yaradılan qrupların nəslindəndirlər). Əgər motivlərin sıxılmasını və ya palitrada müxtəlifliyi nəzərə almasaq, Timurinin və ya başqa Çahar Aimaqin çoxmedalyonlu xalçaları Mərkəzi Asiya türkmənlərinin[14] klassik "süzən göl" tərtibatından daha çox " Hekşer" xalçalarına oxşardır. Lakin mən naxış, struktur və yaş baxımından həqiqətən müqayisə edilə biləcək bir xalça tapmalıyam. İnanmıram ki, biz "bütün bu nümunələr İran saray və ya emalatxana toxuculuğunun daha erkən ənənələrinin təsirinə məruz qalıb" deməklə kifayətlənməliyik. Əslində, mən təklif etmək istərdim ki, cənub-şərqi Xəzər və ya daha da şərqdə, Atrak-Akhal-Darreh Gaz (Dərgəz) Yurtda XVIII əsrin əvvəllərində xalçanın necə toxunduğunu anlamaq üçün (güclü Qafqaz motivləri və xarakterləri göz önünə gəlir) Şimali Xorasanın 1500-1800-cü illəri əhatə edən qəbilə etno-tarixini dərindən anlamaq lazımdır.

Bu tarixdə iki zolaq xüsusilə əhəmiyyət kəsb edə bilər: Səfəvi hərbisində və əyalət inzibati sistemində qızılbaş qəbilə qruplarının rolu və Səfəvilər tərəfindən tətbiq edilən məcburi tayfa miqrasiyası siyasəti. Qızılbaşların əcdadları İran boyunca Mərkəzi Asiyadan miqrasiya edən Şərqi Anadolu və Şimali Mesopotomiya türkmənləri idilər. Onların əcdadları İran vasitəsilə Mərkəzi Asiyadan miqrasiya etmişdilər; ya XI əsr Səlcuq klanının rəhbərliyi altında oğuz türklərinin ilk diasporasının bir hissəsi kimi, yaxud da Mərkəzi Asiya, İran və Anadoluda XVIII əsrdən XIV əsrin[15] ortalarınadək davam edən monqol hökmranlığı zamanı. Onlar "oymaq"[16] kimi tanınan köçəri maldar qəbilə qruplarında təşkil edilmişdilər. 1500-cü ildən öncə onlar şimali Mesopotamiyanın aran ərazisi və şərqi Anadoluda Dəclə və Fərat (Tigris and Euphrates) dağlıq ərazisi arasında səpələnmişdilər. Onlar bölgədə çoxlu sayda siyasi qurumlar üçün əsas işçi qüvvəsini, xüsusilə də XV əsrin Zülqədər, Qaramanlı, Qaraqoyunlu[17] və ilk növbədə, Ağqoyunlu kimi genişmiqyaslı qəbilə konfederasiyalarını təşkil edirdilər".

XV əsrin sonlarında Ərdəbilin Səfəvi şeyxləri fövqəladə şiəliyi təbliğ etməyə başladılar. Türkmən və kürd qəbilələrini qızılbaş bayrağı ətrafında uğurla səfərbər etdilər. Yeniyetmə Şah İsmayılın rəhbərliyi altında onlar Ağqoyunlu türkmənlərini darmadağın etdilər. Təbrizi və sonra bütün Qərbi və Mərkəzi İranı ələ keçirdilər. İran mənbələrində qeyd edilən ilkin 8 əsas, 12 kiçik oymağa Anadoludan Azərbaycana köçən bir neçə qəbilə, eləcə də orta və yuxarı Fərat boyunca köçəri maldarlıqla məşğul olanlar, xüsusilə də əfşarlar və qacarlar da daxildir.

Bundan əlavə, qızılbaşların tərkibinə kürdlərdən və ərəblərdən ibarət 12 və ya az oymaq daxil idi. İranı işğal edən Səfəvilər bu Anadolu qəbilə köçərilərini Azərbaycan və Qafqaz otlaqlarına köçürdü. Onların rəhbərlərinə və əmirlərinə əyalət inzibati vəzifələrini və "ulka" (ərazi vahidi) kimi tanınan cari torpaq-vermə sistemi çərçivəsində torpaq verdilər. 1576-cı ildə Şah Təhmasibin ölümü zamanı, İran xronologiyası 22 Qızılbaş qəbiləsinin siyahısını verirdi; 1629-cu il Şah Abbasın şahlığının sonunda bu göstərici dəyişərək, 32, ya da 33 oldu.[18] Səfəvi hökmranlığının ilk əsrində qızılbaşlar imperiyanın siyasi və inzibati sisteminin imtiyazlı üzvləri idilər. Onların əmirlərinin çoxu məhkəmədə yüksək vəzifə sahibi, ya da əyalət qubernatoru idilər. Şah Abbasın (1587-1629) islahatlarından sonra, onların çoxu həm məhkəmədə, həm də hərbidə qul əsgərlərlə əvəz edildilər. Səfəvi sistemi Böyük Əmirlərə və onların himayəsində olan oymaqlara əyalət hakimiyyətində üstünlük təşkil etməyə icazə verdilər. "Ulka"çox zaman əmirlərin və onların qəbilə davamçılarının bəzi ərazilər üzərində vərəsəlik nəzarətinə gətirib çıxaran bir təşkilata çevrildi. Nəticədə, XVII əsrin sonlarında Xorasan da daxil olmaqla, İranın çox yerləri uğurla bu və ya digər Qızılbaş qəbiləsinin otlaq yerlərinə çevrildilər[19].

Lakin Xorasanda[20] qəbilə müxtəlifliyini başa düşmək üçün, biz Səfəvilərin xüsusilə də XVII əsrin I yarısına aid məcburi qəbilə miqrasiyası siyasətinə müraciət etməliyik. XVI əsrdə Azərbaycandan və Qafqazdan Xorasana qəbilə köçərilərinin hərbi



6. Türkmən xalçası. Şimal-şərqi İran. XIX əsrin sonları. SY yun əsas üzərində yun xov. 1.11 x 1.55m (3'6"x 5'1"). Əvvəllər Robert Pinnerin kolleksiyasında olub.

qarnizon kimi göndərilməsi kimi bəzi hərəkatlar baş versə də, əsas miqrasiyalar imperiyaya xarici təhlükəyə cavab kimi Şah Abbas tərəfindən həyata keçirilirdi. O, Osmanlı hücumlarını dəf etmək üçün sistematik şəkildə şərqi Anadolunu və Qafqazın bəzi hissələrinin əhalisini azaldırdı; şərqdə isə Səfəvilər qul uğrunda arasıkəsilməyən Alaman basqınlarına və Astarabada doğru Gürgan çayının şimalından Yaqqa (Yaka) türkmənləri (əsasən Yomut və Göklen) tərəfindən, Atrek bölgəsinə Təkkə və digər türkmən qəbilələri, XVI-XVII əsrlərdə Ziyadoğlu Qacarın hakimiyyətdə olduğu Merv Oazizə qaşı talanlara müqavimət göstərməyə çalışırdı. Səfəvi miqrasiya siyasətlərinin əhəmiyyətli tədqiqində Con Peri Şah Abbasın rəhbərliyi altında qızılbaş və kürd oymağının Anadoludan, Qafqazdan və Azərbaycandan şimali Xorasana məcburi şəkildə köçürülməsi barədə 14 nümunə gətirir.[21]

"Hekşer" xalçasının tarixi kontekstinə müraciət edərkən aydın olur ki, ən əhəmiyyətli köçürülmələrə İrəvandan, Qarabağdan və Gəncədən Astarabad və Mərvə köçən Qacarın qəbilə komponentləri, Abivard, Nisa və Darreh Qaza göndərilən Qırıqlı Əfşar və Cəlayir, və eləcə də Ərzincanın yaxınlığında Çəmişgəzəkdən minlərlə kürdün Qarabağa köçürülməsi daxildir; amma onlara Quçan, Kabkan və Darrek Qazda otlaqlar ayrılmışdı. Bütün bu məcburi miqrasiyaların təsiri Səfəvilərin Xorasanın müxtəlif bölgələrindən ordu üçün tələb olunan qəbilə süvarisinin həcmini və "ulka"nı sadalayan 1725-ci il inzibati gündəliyində - "Tadkirat əl-Mülük"də aydın görünür.[22]

Astarabad əyalətinə gəlincə, bu mənbə əslən Yaqqa (Yaka) türkmən qrupu olan (500 adam) Gireylinin qəbilə "ulka"-sının, Calayirin (100 nəfər) və eləcə də Goklen və Yomutdan ayrılanların adını çəkir. Məşhəd əyalətindən Əbuvərd "ulka"-sını (Əfşar ərazisi, 550 nəfər), Nisa (həm Əfşar, həm də Cəlayir, 555 nəfər) və Qacar "ulka"-sı Mervdən 2,352 adamın siyahısını verir. Vilfred Stanzerin Xorasan kürdlərinin xalçalarının tədqiqində istifadə etdiyi mənbələrə əsasən, Kuçan kürdləri öz əslini Anadolu və Qafqazdan XVIII əsrin əvvəllərində köçürülən 30,000 ailəyə bağlayırlar[23].

Qızılbaşların dağıdılması, Səfəvi və Əfşar siyasəti Xorasanın şimal sərhədləri boyunca mürəkkəb qəbilə mozaikasının yaranmasına kömək etmişdir. Xorasan qəbilələrinin qeyri-kürd xalçalarına dair hər hansı xüsusi tədqiqatın olmadığı təqdirdə, biz yalnız bu bölgənin XVIII-XIX əsrlərə aid qəbilə maddi mədəniyyəti barədə işarələrlə bir arada qalmış oluruq. Şübhəsiz ki, mədəniyyətin Anadoludan, Azərbaycandan və Qafqazdan Şimali Xorasana yayılması üçün çoxlu mümkün yollar olmuşdur.

Son qeyd: "Hekşer" xalçasında qeyri-adi "polimorfik cüt motiv" nümunələrini və məşhur üz-üzə "ox" haşiyələrini axtararkən, mən Stanzer tərəfindən illüstrasiya edilmiş XIX əsrə aid iki nümunəni məmnuniyyətlə qeyd edə bilərəm; onlardan biri hər iki naxış elementi ilə (**şəkil 7**), digəri isə "ox" haşiyəsi ilə " Hekşer" xalçasına çox oxşayır.[24] Deyilənə görə, onların hər ikisi Darreh Gaz kürdlərinə - Əfşar və Çemişgəzək (Türkiyədə sancaq)ənənəvi qışlaq kürdlərinə məxsusdur. Bu kürdlərin hər ikisi öz kökünü Anadoluddan Qafqazda Azərbaycana, Qarabağa və Şirvana bağlayırlar.

Beləliklə, ilk dəfə " Hekşer" xalçasının türkmən olduğu ideyasına qarşı çıxanda biz müəyyən mənada yanılmış olduq. Çünki o, Mərkəzi Asiya türkmən toxucularının məhsulu olmasa da (lakin Gireyli (Əfqanıstanda yaşayan tayfa) tayfalarının məhsulu ola bilər), çox güman ki, Şimali Xorasanın qızılbaş qruplarından birinə, bəlkə də hamısı əslən Anadolu türkmən mənşəli olan qacarlara, əfşarlara və ya hətta bayatlara aiddir.



7. Xorasan kürd xalçası. Darreh Gaz (Dərgəz) bölgəsində toxunub. Şimal-şərqi İran. XIX əsrin sonları. Simmetrik toxunuş üzərində yun xov. 1.55 x 1.66m (5'1" x 5'4"). Stanzer-dən sonra. 1988, s.73



## Qeydlər:

1. HALI 80, 1995, s.20.
2. D.R. Dodds & M.L. Eiland, Jr., "Oriental Rugs from Atlantic Collections"(Atlantik kolleksiyasından Şərq Xalçaları), Filadelfiya, Pensilvaniya ştatı, ABŞ, 1996,s.162.
3. M.L.Eiland, Jr. & M.L Eiland III, "Oriental carpets: A Comprehensive Guide"(Şərq xalçaları:Ətraflıbələdçi), London, 1998, s.219.
4. HALI 81, 1995, s.121.
5. HALI 80, 1995, s.143.
6. U. Schürmann, "Central-Asian Rugs"(Mərkəzi Asiya Xalçaları), London 1969, tablo.23.
7. E. Herrmann, "Von Ushak bis Yarkand" (Uşakdan Yarkanda), Münhen 1979, tablo.93.
8. A. & V. Rautenstengel və S.U. Azadi, "Studien zur Teppich-Kultur der Turkmen"(Türkmən xalçaçılıq sənətinə dair tədqiqatlar), Hilden 1990, tablo.59.
9. Nəşr edilmiş nümunələrə daxildir: S.A. Milhofer, "Die Teppiche Zentralasiens" (Mərkəzi Asiya xalçaları), Hannover 1968, şəkil.59; U. Jourdan, "Oriental Rugs" (Şərq Xalçaları) cild 5, "Turkoman" (Türkmən),Vudbric 1989, s.112; Christie's hərracı (London, Böyük Britaniya), 20 Mart 2002, lot 57 = HALI 125, 2002, s. 129; Rippon Boswell hərracı, Vizbaden, "Turkmen Carpets, The Lesley & Robbert PinnerCollection"(Türkmən Xalçaları, Lesley & Robert Pinner Kolleksiyası), 15 May 2004, lot 70 (Goklan kimi kataloqlaşdırılıb).
10. HALI 104, 1999, s.83.
11. R.Stone, "The Oriental Rug Lexicon"(Şərq Xalçaları Leksikonu), London 1997, s.132.
12. Pinner tərəfindən qeyd olunduğu kimi Qrup I də deyil.
13. Bax: məsələn, H.R. Myers, "Pacific Northwest Collections" (ABŞ-ın Şimal Şərqindəki kolleksiyalar), Sietl, Vaşinqton ştatı, ABŞ 2004, s.79.
14. Bax: məsələn, HALI 91, 1997 s. 107 = Dodds & Eiland, s.246, tablo.307.
15. "Qızılbaş" termini türk dilində "qızıl baş" deməkdir və Azərbaycanda Ərdəbildə yerləşən Səfəvi ailəsinin türkmən davamçıları və onların Sufi qaydalarına əsasən əmmamə altından geyilən 12 qat xüsusi qırmızı papağa istinad edir. XVI əsrin əvvəllərində onlar Səfəvi sülaləsi üçün ilk dini və hərbi dəstək yaradıblar. Bax S. Canby & J. Thompson, "Hunt for Paradise" Cənnət uğrunda mübarizə.Milan, İtaliya 2003, s.4.
16. Çox zaman türk termini "oymaq" (uymaq, aymaq)-dan istifadə edilib, lakin İran mənbələrində "il", "qaum", "qabileh", "ashireh" or "tayefeh" (hamısı tayfa kimi tərcümə oluna bilər) kimi müraciət edilmişdir.Tayfa terminologiyasının ətrafında məntiqli müzakirə və Səfəvi oymağını əhatə edən ziddiyyətlər üçün bax: R. Tapper, "Frontier Nomads of Iran" (İranın sərhəd köçəriləri),Kembric, Böyük Britaniya, 1997, s.44-47, qeydlərdə daxil olmaqla, bu indiyədək"Şahsevən" kimi tanınan qızılbaş kökünün (qalıqlarının) qəbilə tarixinin ən yaxşı tədqiqidir. Həm də bax: R.Tapper & J. Thompson, "The Nomadic Peoples of Iran"(İranın köçəri əhalisi)-də qeydləri, London, Böyük Britaniya 2002, ss.24-33.
17. Bax: J. Woods,"The Aqqoyunlu: Clan, Confederation and Empire" (Ağqoyunlu Klanı, Konfederasiya və İmperiya), Solt Leyk Siti, Yutaştatı, ABŞ 1999, ss.1-59 və əlavə B, ss. 183-198,qəbilələr haqqında təfsilatlar üçün. Səhifə 199-dakı xəritənin ətraflı tədqiqi bizə XV əsrdə Anadoluda türkmən və kürdlərin matrisindən (matrix) qaynaqlanan Səfəvi qızılbaşlarının və qacar erasının hüdudunu dəyərləndirməyə imkan verir.
18. Əsas mənbə bunlardır: Iskander Beg Turkman "Tarikh Alam Ara-yi-Abbasi", Tehran, İran 1971, R. Savory tərəfindən tərcümə edilib; Böyük Şah Abbasın Tarixi, Bolder, Kolorado ştatı, ABŞ, 1979. Digər əhəmiyyətli mənbələr bunlardır: Hasan Rumlu"Ahsan at-Tavarikh", Qumi"Khulasat at- Tavarikh", anonim "Tarikh-i-Qizilbashan" və eləcə də Dickson, Savory, Babayan-ın ikinci dərəcəli işləri,Roemer, Haneda, "Floor and Petrushevsky". Tapper-də çox gözəl biblioqrafiyaya bax 1997.
19. Bunun ən gözəl nümunəsi Astarabad otlaqlarında Qoyunlu Qacarlar üçün irsi yurtun yaradılmasıdır və elə gələcəyin dinastiyası da öz əsas gücünü burdan almışdı.
20. Əsasən XVIII əsrin əvvəllərinə aid mənbəyə və Qacar xronologiyasına əsaslanaraq, Riçard Tapper "The Cambridge History of Iran"(İranın Kembric Tarixində)adlı xəritədə Xorasanın qəbilə mozaikasının təhlilini verib. 1991 cild.7, s.510-511. Onun mükəmməl xülasə fəslinə də bax, "The Tribes in Eighteenth and Nineteenth Century Iran" (18 və 19-cu əsrdə İrandakı qəbilələr),ss.506-541. Lakin xəritə yalnız statik (sabit) baxışa imkan verir.
21. J. Perry, "Forced Migration in Iran during the Seventeenth and Eighteenth Centuries, in Iranian Studies" (XVII və XVIII əsrlərdə İranda məcburi miqrasiyalar, IranTədqiqatları), 8(4), 1975, ss. 199-215.
22. Mirza Sami'a, Tadkhkirat al- Muluk, V. Minorsky tərcümə və qeydlərində, Kembric, Böyük Britaniya, 1980, 116a-119b mətnləri, tərcümə, ss.100-105.
23. W. Stanzer, Kürdcə, "Lives – Rugs – Flatweaves of the Kurds in Khorasan" (Yaşayış -Xorasanda kürdlərin xalçaları-xovsuz xalçaları), Vyana, Avstriya 1988, ss.10-23. Bu mükəmməl tədqiqata Kürd oymaq/tayfalarınkökü və yayılması haqqında Qafqazdan və Anadoludan şimali Xorasana kütləvi əhali yerdəyişməsi haqqında daha faydalı tarixi məlumat daxildir.
24. Ibid., ss.70-71.